# 1. SÖZÜN BAHAR GÜLLƏRİ

Sözə yön tutmaq, sözü ünvan bilmək, özünü sözdə tapmaq istəyi azçox təbiətinə mənəvi harmoniya qismət olmuş hər şəxsdə özünü göstərə bilər. Amma bu o demək deyildir ki, hər kəs sözün tufanlı məcrasında davam gətirəcək, özünü üz tutduğu sözün məkanında tapa biləcək. Yəqin ki, sözə üz tutanların sayı ilə müqayisədə sözdə qərar tutub qalanların sayı çox az olar. Amma burada bir başqa məqam da var. Sözə üz tutanların, demək olar ki, çox böyük əksəriyyəti özünü poetik tərzdə ifadə etməyə çalışır. Bu da onunla bağlıdır ki, əlinə qələm götürüb ruhunu sözə çəkmək istəyi insanın, xüsusilə gənclərin vəcd mühiti ilə daha çox bağlıdır.

Vəcd nədir? Bu elə bir hissdir ki, o, insanın varlığına dolanda sanki ətraf mühitdən təcrid olunur. Amma ətraf mühitdən yığdığı müşahidələri, aldığı təəssüratı qeyri-real mühit içində çırpındığı məqamlarda sözə gətirir. Bu zaman onun mənəvi mühitində yaranmış psixoloji gərginlik sözə çevrildikcə insan rahatlıq tapır. İş burasındadır ki, gənclər həmişə həyatı özlərinə xas olan düşünə imkanları qədərində rəngarəng görürlər və bu rəngarəngliyi də istedadın imkanı qədərində reallaşdıra bilirlər.

Görünür, özünü sözdə tapmaq istəyən, özünü sözdə görən hər bir gənc ən çox ona görə poetik əhvalda olur ki, vəcd psixoloji imkan kimi daha çox gənclərə aiddir. Çünki gənclər üzü gələcəyə doğru xəyalla, daha çox qanadlı duyğularla can atırlar. Bir sözlə, hər bir gəncin poetik özünüifadə istəyini bu mənada daha doğru qavramaq olar.

Bir vaxt Nikolay Tixonov "Azərbaycan xalqı şair xalqdır" deyirdi. Onun bu dəyərini səmimiqarşılayanlar da çox oldu. Amma dövrün mətbuatındakı əks-sədalardan yadımda qalan belə bir məqam da var ki, qoy tanrı kimə qarğış edirsə, onu şair etsin. Mən deməzdim ki, bu fikirlə şərikəm. Hər halda, Azərbaycan ədəbiyyatının ən nəhəng simaları Azərbaycan xalqını dünya mədəniyyəti tarixinə həkk edən Nizamilərdir, Füzulilərdir, Nəsimilərdir... şübhəsiz, bu siyahını günümüzə qədər gətirmək olar.

Bəs şair xalq olmağın hansı mənfi tərəfi var? Bunu nihilistlərin ixtiyarına buraxaq. Bizim ixtiyarımızda qalan budur ki, bəlkə də şairlər olmasaydı, cəmiyyət mənəvi düşüncə imkanlarını indiki qədər genişləndirə bilməzdi. Zənnimcə, giriş üçün bu qədər bəs edər.

Biz bu gün Azərbaycan nəsrinin kifayət qədər söz imkanı olan və artıq dəyərə çevrilmiş əsərləri ilə tanınan Ulduz Qasımın yaradıcılığınıxarakterizə edərkən onun ədəbi cameədə sanbalı ilə görünən nəsr əsərlərindən danışmazdan qabaq, onun ilkin yaradıcılıq nübarlarına diqqət etmək çox vacibdir.

Birincisi, ona görə ki, hər bir qələm adamının ömrün - yaşın kamillik səviyyəsində zirvəyə haradan yol başladığını bilmək çox vacibdir. Çünki zirvənin fəth imkanları başlanğıcın uğurundan çox asılıdır.

İkincisi, bu gün Ulduz Qasımı tanınmış Azərbaycan nasiri kimi xarakterizə etmək onu öz kökündən ayırmaq demək olardı. Ulu çinarlar da əvvəlcə fidandır, pöhrədir. Ulu çinar olmağa qədər nə qədər tufanlardan keçib, bunu unutmaq olmaz.

Üçüncüsü, hər hansı bir yazıçının mükəmməl portreti onun yaradıcılığının ilk çağlarından başlayaraq formalaşır. Bu mənada, ilk qələm təcrübələrini qətiyyən diqqətdən kənarda qoymaq olmaz. Ən azı, onda portret yarımçıq görünər.

Beləliklə, Ulduz Qasım yaradıcılığa ikili istiqamətdə başlayıb desəm, onun ilk qələm təcrübələri ilə tanış olan bir müəllif kimi kimsə mənə gələcəkdə irad tutmaz.

Bu ikili istiqamətin birincisi Ulduz Qasımın hələ şagirdlik dövründə yaşadığı Qarabağda - Cəbrayılda, bir az da dəqiqləşdirsək, doğulub-böyüdüyü Mehdili kəndində gördüklərini qələmə aldığı və bu ilk qələm yazılarını rayon qəzetinə göndərdiyi müxbir yazılarından ibarətdir. Ulduzun həmin dövr müxbir yazılarında nədən söhbət gedib, yaşadığı kənddə onun nəzərdiqqətini cəlb edən hansı hadisələri yazıya gətirmək istəyib - bunlar artıq bir yazıçının yaradıcılıq tarixi ilə bağlı məsələdir.

Ulduz Qasımın hələlik əlimdə olan istinada görə "Mən aşığam Qarabağda" kitabını və xronoloji ardıcıllıq baxımından ilk kitabını vərəqləyirəm.



Və diqqətimi "Kolxozçu" qəzetində dərc olunmuş 19 avqust 1978-ci il tarixli yazısı cəlb edir. Yazının adı belədir - "Xidmət yaxşılaşdırılmalıdır". Söhbət "İnqilab" kolxozunda çalışan ağ qızıl ustalarından gedir. Burada adlar çəkilir; Gülbuta Quliyeva, Davud Quliyev, Xanım Vəliyeva, Mahmud Həsənov, Rövşən Mikayılov, Həmayıl İsmayılova... Və həmin yazıda "Çinar" mahnı və rəqs ansamblının əməkçilərə mədəni xidmətindən söhbət açılır. İndi bu təfərrüatı yada salmaq bəlkə də o qədər yerində görünmür. Amma Ulduzun gələcək yaradıcılıq taleyini müəyyən edəcək hadisələri gözlərimizin önündə canlandıranda Ulduzun mənəvi mühitində insan idealının necə əvəzsiz mahiyyət kəsb etdiyini dumamaq mümkün deyil. Qoy bir qədər irəli getmiş olaq. "Qürbət zöhrəsi"ndəki, "Solmayan nərgiz"dəki, "Ağ göyəçinlər"dəki adamları gözlərimizin önünə gətiririk. Bu adamlar - yəni tarixi faciənin ağlar-sızlar, ancaq ölməz, əriməz qəhrəmanları həmin ilk gənclik çağlarında pambıq qəhrəmanları kimi təqdim etdiyi insanların varisləri olduğunu necə diqqətdən kənarda qoymaq olar. Bəli, o pambıqçıların, əmək adamlarının zəhmətini yaza-yaza ədəbiyyata gələn Ulduz Qasımdan danışırıq. O Ulduz Qasımdan ki, hələ yuvasında təzə-təzə cükküldəyən, dimdiyinin ucunda sarısı ilə göz oxşayan söz ətcəbalası idi. Bəli, bu artıq o vaxtdır ki, Ulduz Qasım universitetə imtahan verib qəbul kağızını gözləyirdi. Bəlkə, lap birinci kursda oxuyurdu. Axı buraya qədər də onun çox həyəcanla qələmə aldığı çoxlu müxbir məktubları da rayon qəzetində dərc olunmuşdu.

Burada bir haşiyə yerinə düşər; bu günlərdə tanınmış Azərbaycan naşiri, Moskvada yaşayıb-yaradan Ulduz Qasımın doğmalarının məskunlaşdığı Muğandakı Cəbrayıl qəsəbəsində oxucularla görüşü oldu. Həmin görüşdə mənimUlduz Qasımın yaradıcılığı haqqında məruzəm nəzərdə tutulurdu. Görünür, xəbər sürətlə yayılmışdı. Rəsmilər və qeyri-rəsmilər zəng edib Ulduz Qasımın ədəbi gücü haqqında suallar verirdilər. Amma bu zənglərdən biri mənim üçün daha çox yaddaqalan oldu. Muğandakı Cəbrayıl qəsəbəsində yaşayan şair Miurzə Mirimli zəng edib soruşdu ki, bu hansı Ulduzdur? Mən də bir qədər yumorlu cavab vermək istədim: "Göy üzündə o qədər ulduz var ki, axı hansını, necə fərqləndirəsən?". Şair Mirzə Mirimli sözümü, zarafatımı səmimi qəbul etdi və təkrar soruşdu: "Mən yerdəki Ulduzdan danışıram...".

Mən izahat verməli oldum, Ulduz Qasımın Moskvada yaşadığını, yaradıcılıq taleyini Qarabağ hadisələri ilə bağladığını, inadla və inamla yazıb-yaratdığını, ən başlıcası, Azərbaycanla sıx informasiya əlaqəsini kəsmədiyini... və bir çox başqa mətləbləri də dostum şair Mirzə Mirimliyə elə telefondaca danışmalı oldum. Və şair öz intuisiyasına uyğun olaraq "70-80-ci illərdə bizim "Kolxozçu" qəzetində Ulduz İmanova görünürdü; düşünürəm ki, bu həmin Ulduz ola bilər" - dedi.

Şair doğru deyirdi, Ulduzun pöhrə vaxtını, fidan vaxtını, əgər belə demək mümkünsə, qəlbinin ilk ocaq işartılarını gördüyü zamanı yada salırdı.

Bir yeniyetmə üçün həyata doğru uçmaq istəyi arzu və istəklərin qoşa qanadı ilə bağlıdır. Hələ ki, Ulduz üçün hansı yolla gedəcəyi və hansı qanadla uçacağı o qədər aydın deyil. Və o, müxbir məktublarını, jurnalist yazılarını və əlbəttə ki, ilk şeirlərini müvazi aparırdı. Buna ədəbi paralellik də demək olar. Bəli, Ulduz həmin dövrdə müxbir məktubları ilə yanaşı lirik şeirlər də yazırdı. Onun ilk lirik şeirləri, ilk poetik qələm təcrübələri də elə Cəbrayılın "Kolxozçu" qəzetində işıqlığa çıxmışdı. Təqribən həmin mərhələni öz həyatımda yaşadığım üçün bəzi məqamlar mənə də tanışdır. Yəni rayon qəzetində çap olunmuş yazılarımızı respublika mətbuatına da göndərirdik. Ruhu oxşayan yazılarımızın nəşri bizim üçün dünyanın əvəzsiz mükafatı idi.

Bir sözlə, Ulduz Qasım 80-ci illərin əvvəllərində artıq respublika mətbuatında, hətta ədəbi mətbuatda görünməkdə idi.

80-ci illərin xarakteristikası müxtəlif müəlliflər tərəfindən, müxtəlif yönlərdən şərh olunur. Bütün hallarda 80-ci illər heç də hamar zaman kimi şərh olunmur. Ulduz Qasım ədəbi mühitdə artıq 80-ci illərin əvvəllərindən artıq görünməkdə idi. Bu o demək idi ki, o 80-cilər ədəbi nəsrinin yazarı olaraq bu gün ədəbi tarixin yaddaşında öz yerini tapıb.

Tənqidçi filosof Sabir Bəşirov 80-ci illər dövrünü ədəbi müstəvidə şərh edərkən yazır: "80-cilər ədəbi nəslinin yaşadığı mənəvi sarsıntıları bütöv XX əsrin ən sıxıntılı dövrü - 30-cu illərin təbiəti ilə müqayisə etmək olar. Doğrudur, 30-cu illərin ədəbi-tarixi xronikasında əsas "imza" qan və güllədir. 80-cilərin taleyində isə əsas imza mahiyyətcə heç də o "imzalardan" geridə qalmayan, insanı mənən əzən, onun ruhunu dağıtmağa yönəlik, birbirini təkzib edən dəyişkən hadisələrin bəxş elədiyi ağrılardı, acılardı. Bu mənada, 80-ciləri yaradıcılıq taleləri baxımından heç də hamar bir yolun yolçuları kimi təsəvvür etmək olmaz. Onlar elə bir mənəvi mühitdə formalaşdılar ki, bu mühitin mənəvi ölçüləri baş verən hadisələrə rəğmən dəyişkən və bəzən, hətta sürüşkən idi. Bir növ 80-cilərin taleyinə, ömür payına düşmüş bütöv bir qərinə o qədər ziddiyyətli idi ki, sanki bu ziddiyyətlər bir xaos, bir qarışıqlıq toru idi. Az qala bu xaosun içərisində bütöv bir ədəbi nəsil itməkdə idi. Ancaq buludlar dağılıb havalar açıldıqca, ictimai-siyasi mühitin tüstüləri çəkildikcə, bir çox mətləblərin üzərinə aydınlıq düşür. Və bu aydınlıqda bir parlaq zəka, aydın düşüncə və ən başlıcası, sonsuz fədakarlıqla yazıb-yaratmaqda olan bir çox müasirlərimizi görə bilirik. Doğrudur, onların ümumi say tərkibi çoxdur. Üslub, müraciət etdikləri ədəbi janr, tapındıqları estetik görüşlər fərqlidir. Onları birləşdirən də elə bu müxtəlifikdə bir-birini tamamlayan keyfiyyətlərdir. Etnik mənəi yaddaşa müraciət, tarixi keçmişə baxış, müqəddəs dəyərlərə toxunulmazlıq mövqeyindən yanaşma...". Bəli, bu o dövr idi ki, meyarlar sökülürdü, ölçülər dağılırdı, insanlar, xüsusilə ədəbi mühitin yazarları hiss edirdilər ki, artıq əvvəlki düşüncə ilə yaşamaq mümkün deyil. Bu dövrdə ədəbiyyata, sözə gələn gənclər isə az qala çaşqınlıq vəziyyətində idi. Hansı yola gedəcəklər, hansı idealı tərənnüm edəcəklər - bu hələ dumanlı görüntü idi. Bütün hallarda, ilk qələm təcrübələri ilə sözə gələnlərin iztirabları nə qədər həssas və titrəyişli olsa da, heç də sarsıntılardan kənarda deyildi. Belə bir mərhələdə yazıya. Sözə gələn Ulduz Qasım da yəqin ki, bu həyəcanları yaşamaqda idi. Hələ məsələnin nə qədər ciddi olduğunun fərqinə varmaq imkanı olmasa da. Bu dövrdə onun ilk şeirləri mətbuatda işıq üzü gördü. İndiki halda Ulduzun 3 şeirini, yəni nəşr tarixi və nəşr olunduğu mənbə diqqətimi cəlb etdiyindən yazıya gətirməkdə qərarlı oldum.

*(Davamı var)*